**Şəhriyar Müslət oğlu Kərimov**

**UOT:677:338.45; JEL:L60;O53.**

# Yüngül sənaye sahəsinin iqtisadi inkişaf problemlərinə nəzəri-metodoloji yanaşmalar və onların xüsusiyyətləri

***Xülasə***

*Tədqiqatın məqsədi – yüngül sənaye sahəsinin iqtisadi inkişaf problemlərinə nəzəri-metodoloji yanaşmalar və onların xüsusiyyətlərinin müəyyənləşdirilməsidir. Bunun üçün məqalədə yüngül sənaye sahəsinin inkişaf problemləri açıqlanmış və onların xüsusiyyətləri verilmişdir. Yüngül sənaye sahəsinin inkişafının modelləşdirilməsi və bu sahədə olan ehtiyatların üzə çıxarılması məsələlərinə baxılmışdır. Yüngül sənaye sahəsinin iqtisadi inkişaf problemlərinin həlli yolları müəyyənləşdirilmişdir. Tədqiqatın metodologiyası – tədqiq olunan problemlərdən baxılmaqla, yüngül sənaye sahəsinin inkişafına mane olan problemlərin aradan qaldırılması məqsədilə analiz, sintez, statistika və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Tədqiqatın tətbiqi əhəmiyyəti – əldə olunmuş elmi nəticələrdə yüngül sənaye sahəsinin inkişaf etdirilməsindən ötrü məqsədli proqramların hazırlanmasında və fəaliyyət strategiyasının işlənməsində istifadə oluna bilər, həmçinin tədris vəsaitlərinin hazırlanmasında tələb olunandır. Tədqiqatın nəticələri – yekun olaraq yüngül sənaye sahəsinin inkişaf etdirilməsi və onun potensialının səmərəliliyinin təmin edilməsi üçün optimal fəaliyyət strategiyasının və işlək mexanizmlərin hazırlanmasından ibarətdir. Tədqiqatın orijinallığı və elmi yeniliyi – məqalədə yer alan materiallar iqtisadi metodlardan istifadə etməklə aparılan məqsədli tədqiqatın nəticəsi kimidir və buna görə də onun orijinallığı tələb olunan səviyyədədir. Başlıca elmi yenilik isə müasir dövrdə yüngül sənaye sahəsinin inkişafına və burada mövcud problemlərə müasir prizmadan yanaşılması, sahənin prioritetlik səviyyəsinin qiymətləndirilməsidir. Eyni zamanda, Azərbaycanda yüngül sənaye sahəsinin inkişafının modelləşdirilməsi və bununla bağlı olaraq təsirli tədbirlərin görülməsinin vacibliyi obyektiv reallıqlar üzrə əsaslandırılmış, müvafiq tövsiyələr irəli sürülmüş və təkliflər verilmişdir.*

***Açar sözləri:*** *yüngül sənaye, yüngül sənaye sahəsi, yüngül sənayenin inkişaf problemləri, yüngül sənayenin inkişaf yolları, yüngül sənayenin inkişafını ləngidən amillər, parça məmulatları, geyim məmulatları.*



## Giriş

Müasir şəraitdə yüngül sənaye ölkə iqtisadiyyatının ən mühüm sahələri arasında xüsusi yer tutmaqla əhəmiyyətli rola malikdir. Yüngül sənaye bütövlükdə sənaye istehsalının böyük potensiala və zəngin əmək ənənələrinə malik ən qədim sahəsidir. "Yüngül sənaye" terminindən istifadə etməklə biz müxtəlif növ xammaldan əsasən istehlak malları istehsal edən və həm xammalın ilkin emalı, həm də hazır məhsul istehsalını həyata keçirən ixtisaslaşdırılmış sənaye sahələrinin məcmusunu nəzərdə tuturuq. Qısaca olaraq yüngül sənaye dedikdə, istehlak mallarının istehsalı üzrə ixtisaslaşan müxtəlif sənaye sahələrinin məcmusu başa düşülür. Yüngül sənaye iqtisadiyyatın ən mühüm diversifikasiyalı və innovativ sektorudur. Yüngül sənaye iqtisadiyyatın ən mühüm şaxələndirilmiş və investisiya cəlbedici sahəsidir. Yüngül sənaye və onun aparıcı müəssisələri ölkənin sənaye kompleksinin inkişafında, idxaldan asılılığın azaldılmasında və milli iqtisadiyyatın ixracyönümlülüyünün artırılmasında mühüm rol oynayır. Qeyd edək ki, yüngül sənayesiz bəşər cəmiyyətinin tarixini təsəvvür etmək mümkün deyil. İnsanın inkişafı ilə onun ehtiyacları, xüsusən də paltara,

*©Şəhriyar Müslət oğlu Kərimov Azərbaycan Texnologiya Universiteti, doktorant. E-mail: sehriyarkerimov00@gmail.com*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

ayaqqabıya, parçalara, dəbdəbəli məmulatlara ehtiyacı artmış, buna görə də toxuculuq, geyim, dəri və xəz və ayaqqabı istehsalı inkişaf etmişdir. Sənayeləşmə və kapitalizmin inkişafı üçün təkan toxuculuq istehsalının inkişafı idi (bu, ən parlaq və aydın şəkildə ilk manufakturaların bəzilərinin meydana gəldiyi ingiltərədə baş vermişdir) [1]. Hazırda yüngül sənaye bütün dünyada inkişaf etməkdə davam edir. Yüngül sənaye getdikcə daha çox bilik tutumlu olur ki, bu da rəqabət qabiliyyətini gücləndirmək üçün yeni məhsul və texnologiyaların hazırlanması və tətbiqi zərurətini doğurur. Bu tendensiya həm aqrar-sənaye kompleksinin istehsalın həcminin artırılması imkanları, həm də kimya sənayesindəki yeniliklərlə müəyyən edilir. Odur ki, istehsal həcmlərinin artması, onun strukturunun dəyişməsi və yüngül sənayenin çeşidinin yenilənməsi bilavasitə yuxarıda göstərilən sahələrin inkişafından asılıdır.

**Müasir şəraitdə yüngül sənaye sahəsinin iqtisadi inkişaf problemlərinə yanaşmaların təhlili**

Qlobal təsirdən yaranan yeni şəraitdə milli iqtisadiyyatda baş verən dəyişikliklər və onun modernləşdirilməsi qanunauyğunluqları yüngül sənayenin inkişafının nəzəri-metodoloji əsaslarının öyrənilməsi problemini aktuallaşdırır. Müasir dövrdə milli iqtisadiyyatın dayanıqlı inkişafının, makro və mikroiqtisadi sabitliyinin təmin edilməsi yüngül sənayenin qarşısına bir sıra tələblər qoyur. Onların fəaliyyəti prosesində gəlir əldə etmək, müştərilərin tələbatını ödəmək və müəssisə xərclərinin optimallaşdırılmasına nəzarət etmək üçün mövcud sistemlərin yenidən qurulmasını tələb edir. Burada əsas diqqət bir tərəfdən xarici rəqabət mühitinin, digər tərəfdən isə daxili amillərin nəzərə alınması ilə həmin sənaye müəssisələrinin fəaliyyətinin səmərəliliyinin artırılmasının nəzəri və metodoloji məsələləri kompleksinin təkmilləşdirilməsinə yönəldilmişdir. Digər tərəfdən, dövlətin uzunmüddətli maraqları yüngül sənayenin inkişafı ehtiyacını diktə edir ki, bu da aşağıdakı amillərlə bağlıdır: Birincisi, yüngül sənaye ənənəvi olaraq daxili bazara yönəlmiş sənayedir və insanların yaşayış səviyyəsi ilə bağlı obyektiv şəraitə görə həmişə həmin sahə məhsullarına tələbat vardır. İkincisi, yüngül sənaye əhali üçün geyim və ayaqqabı, parça, dəri və dəri məmulatları və digər məhsullarla təmin edilməsi problemini həll etməli, bununla da ölkənin iqtisadi təhlükəsizliyinə təhdidləri aradan qaldırmalıdır. İqtisadiyyatın inkişafı üçün bu və digər obyektiv şərtlər yüngül sənaye müəssisələrinin səmərəliliyinin ölçülməsi, təhlili, planlaşdırılması və stimullaşdırılmasında nəzəri və metodoloji məsələlər komplekslərinin işlənib hazırlanması zərurətini əvvəlcədən müəyyən edir. Yüngül sənaye həm xammalın ilkin emalı, həm də hazır məhsul istehsalını həyata keçirir. Həm istehlak malları, həm də texniki məhsullar istehsal edən sənaye kompleksinə daxildir. Bu sənaye əhali üçün parçalar, paltarlar, ayaqqabılar, trikotaj məmulatları və digər məhsullar istehsal edir. Yüngül sənaye müəssisələri mebel, aviasiya, avtomobil, kimya, elektrik, yeyinti və digər sənaye sahələrində, kənd təsərrüfatında, hüquq-mühafizə orqanlarında, nəqliyyatda və səhiyyədə istifadə olunan sənaye, texniki və xüsusi təyinatlı mallar istehsal edir. Eyni zamanda, bu sənayenin inkişafı prosesində yaradılan əlavə məhsullar digər fəaliyyət sahələrində istifadəyə göndərilir. Yüngül sənaye məhsullarının satış həcminə bir sıra amillər təsir edir: son istehlakçıların tələbi, daxili bazarda daha keyfiyyətli məhsul satan idxal istehsalçılarının olması. Yeni geosiyasi şəraitdə əmək qabiliyyətli əhalinin məşğulluğunun təmin edilməsində və onun həyat səviyyəsinin yüksəldilməsində mühüm rolunu nəzərə alaraq, aparıcı dünya dövlətləri bu sənayenin inkişafına xüsusi diqqət yetirirlər. Bütün bunlar yüngül sənayenin inkişafının nəzəri-metodoloji əsaslarının öyrənilməsinin aktuallğını göstərir. Yüngül sənaye bir sıra sdigər ənaye sahələrini öz sferasına cəlb edir. Bu istehsal sahəsi nisbətən aşağı kapital qoyuluşlarına, yüksək rentabelliyə və elm tutumuna malikdir.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Ümumilikdə, yüngül sənayenin vəziyyəti ölkənin iqtisadi və strateji təhlükəsizliyinə təsir göstərir. Yüngül sənaye məhsulları insan fəaliyyətinin bütün sahələrində istifadə olunur və istehlaka görə qida məhsullarından sonra ikinci yerdədir [2]. Ümumiyyətlə, yüngül sənaye ekoloji cəhətdən təmiz sənayedir. Onun üçün enerji mənbəyi əsasən elektrik enerjisi olduğundan zərərli tullantılar və havanın çirklənməsi minimaldır. Buna görə də sənaye müəssisələri çox vaxt yaşayış məntəqələrinin yaxınlığında yerləşir. Yüngül sənayenin xüsusiyyəti istehsalın yüksək mobilliyi və müəssisələrin texnoloji imkanlarıdır ki, bu da tələbatın və modanın mövsümi dəyişiklikləri ilə əlaqədar bazar dəyişiklikləri zamanı istehsal həcmini azaltmadan məhsulların çeşidini tez bir zamanda dəyişdirməyə imkan verir [3]. Yüngül sənayesinin təsərrüfat vəsaitlərinin sürətli dövriyyəsi, sənayenin məhsullarına daimi tələbatın olması, istehsalın dinamik genişlənməsi, texnika və texnologiyaların operativ şəkildə yenilənməsi kimi xüsusiyyətləri həmin sənaye sahəsinə investisiyaların cəlb edilməsi üçün əsasdır [4]. Məlumdur ki, yüngül sənaye müəssisələrinin yerləşdirilməsi amilləri müxtəlifdir və hər bir sənaye üçün öz xüsusiyyətlərinə malikdir. Həmin amillərə əmək amili, xammal amili, istehlak amili, yerləşdirmə amili və digərləri daxildir. Ağır sənayedən fərqli olaraq, bir çox qadın yüngül sənaye müəssisələrində, xüsusən də toxuculuq və geyim istehsalı fabriklərində çalışır. Yüngül sənaye, ümumiyyətlə, birdəfəlik əhəmiyyətli xammal ehtiyatına ehtiyac duymadığından, ağır sənayedən fərqli olaraq, bu sənaye sahəsinə daxil olan müəssisələri dəmir yolu xətlərinin yaxınlığında yerləşdirməyə ehtiyac yoxdur. Bu istehsal sahəsi nisbətən aşağı kapital qoyuluşlarına, yüksək rentabelliyə, yüksək elm tutumuna malikdir. Müəssisəni elə yerləşdirmək lazımdır ki, onun istehsal etdiyi məhsula tələbat olsun. Müəssisə müəyyən məhsulun istehsalı üçün özünü bütün lazımi xammalla təmin edə bilməlidir. Yüngül sənayesinin rolu toxuculuq sənayesinin inkişafında ən aydın şəkildə əks olunur. Bu sənayeyə pambıq, kətan, yun, ipək sənayesi daxildir. Hər bir şirkətin öz istehsal texnologiyaları var ki, bu da unikal məhsullar yaradır [5]. Yüngül sənayenin inkişaf etdirilməsinin əsas üstünlüklərini cədvəl 1-də ümumiləşdirmişik.



**Cədvəl 1.**

**Yüngül sənayenin inkişafının əsas üstünlükləri**

| **Əsas üstünlüklər** | **Formalaşma xüsusiyyətləri** |
|---|---|
| **Yüngül sənayeyə dövlət dəstəyi proqramları** | Yüngül sənayedə hazırda çoxlu sayda dövlət dəstəyi proqramları mövcuddur ki, onlardan ən əsasları güzəştli şərtlərlə kredit verilməsi, vergi yükünün azaldılması, subsidiyaların verilməsi. |
| **Çevik idarəetmə və inkişaf strategiyası** | Müəssisələrin inkişafı çərçivəsində müxtəlif inkişaf strategiyalarını, o cümlədən müştəri yönümlü strategiyaları tətbiq etmək mümkündür ki, bu da bazarda öz mövqeyini möhkəmləndirməyə imkan verəcəkdir. |
| **İstehsalda yenilik** | Yüngül sənaye müəssisələri kiçik və orta müəssisələrin mövcudluğunu nəzərdə tuturlar. Burada avadanlıqları daha tez dəyişdirmək, habelə dövlət dəstəyinin köməyi ilə daha yaxşı qiymətə innovativ texnologiyalar əldə etmək mümkündür. |
| **Müəssisə nəzarəti** | Kiçik biznesdə əksər hallarda şirkət üzərində nəzarət bir şəxsə - sahibinə məxsusdur. Sahibkarın özü heç kimlə məsləhətləşmədən və heç kimə hesabat vermədən qərar qəbul etmək hüququna malikdir. |
| **İnformasiya dəstəyi** | Yerli istehsalçıların yüngül sənaye mallarının mediada və İnternetdə təbliği mümkündür. |

Mənbə: Cədvəl müəllif tərəfindən tərtib olunub

Tədqiq olunan sahədə istehslal olunan məhsullar əsasən yüngül sənaye məhsulları bazarında alınıb satılır. Yüngül sənaye malları bazarını məhsul növünə görə şərti olaraq üç əsas qrupa bölmək olar: toxuculuq malları bazarı; geyim istehsalı bazarı və dəri, xəz və ayaqqabı sənayesi malları bazarı. Bundan əlavə, yüngül sənaye malları bazarının strukturunda ən böyük payı geyim və toxuculuq sənayesi malları bazarı tutur [6]. Hazırda yüngül sənaye

kompleks struktura malikdir ki, bu da toxuculuq və geyim istehsalı, dəri, dəri məmulatları və ayaqqabı istehsalı sahələrini əhatə edir. Yüngül sənayedə iqtisadi fəaliyyətin əsas növlərinin uyğun olaraq, üç əsas qrupa: toxuculuq istehsalı; geyim istehsalı; dəri və dəri məmulatlarının istehsalı sahələrinə ayrımaq olar [7]. Məlumdur ki, toxuculuq sənayesi yüngül sənayenin əsas sahəsidir və toxuculuq sənayesi bütün növ parçaların, trikotaj məmulatlarının və digər məhsulların istehsalını birləşdirən yüngül sənaye sahələrinin ən böyüyüdür. Əsasən kənd təsərrüfatı xammalından istifadə edir [8]. Şəxsi istifadə üçün müxtəlif növ məhsullar istehsal edən toxuculuq sənayesi insanların maddi rifahının ən mühüm tərkib hissələrindən birini təşkil etdiyindən ölkə üçün böyük sosial əhəmiyyət kəsb edir. Qloballaşma və dünya iqtisadiyyatının inteqrasiyasının mövcud tendensiyaları şəraitində toxuculuq sənayesi aşağıdakıların təmin edilməsində böyük əhəmiyyət kəsb edir:

- regionlarda və bütövlükdə ölkədə iqtisadi və strateji təhlükəsizliyin təmin edilməsi;
- milli iqtisadiyyatın kapitallaşmasının artım tempinin yüksəldilməsi;
- sosial gərginliyin azaldılması;

İstənilən bölgənin toxuculuq sənayesi onun üzvi hissəsidir və onunla vahid kompleksdə inkişaf edir. Toxuculuq sənayesi onun əsasını təşkil edən yüngül sənayenin bir sahəsidir. Bitki, heyvan və süni mənşəli liflər əsasında iplik, sap, parçalar istehsalı ilə məşğuldur. Bu gün toxuculuq sənayesi yüngül sənaye sahələrinin bir qrupudur. O, aşağıdakı kimi alt sektorlardan ibarətdir: pambıq parçalar istehsalı; yun parçalar istehsalı; kətan parçalar istehsalı; ipək parçalar istehsalı; süni liflərdən parçalar istehsalı və toxunmamış materialların istehsalı. Toxuculuq sənayesində parçaların hazırlanması istehsal prosesinə təsir edən əsas amildir. Bu proses bir neçə mərhələdən ibarətdir. Parçaları iki növə bölmək olar - təbii və kimyəvi. Təbii parçalar bitki mənşəlidir. Təbii parçalar kateqoriyasına pambıq və digər liflərin qarışığından istifadə etməklə hazırlanan pambıq parça daxildir. Təbii materiallar kateqoriyasında pambıq parça ən çox yayılmışdır. Təbii materiallar kateqoriyasında heyvan mənşəli toxuculuq xammalı da fərqlənir. Bu növ parçalara ipəkqurdu, hörümçək torlarından hazırlanmış təbii ipək daxildir. Kimyəvi parçalar sintetik, süni və mineral növlərə bölünür. Viskoza, asetat parçalar kimi süni liflər toxuculuq sənayesində geniş tətbiq tapmışdır. Polyester paltar istehsalında geniş istifadə olunur. Toxuculuq sənayesi tərəfindən istehsal olunan məhsullar bir çox başqa yüngül sənaye sahələri üçün xammal ola bilər, həmçinin geyim, ayaqqabı, qida və s. kimi sənaye sahələrində köməkçi material kimi istifadə oluna bilər.

Yüngül sənaye sektorunun digər mühüm sahəsi geyim istehsalı sənayesidir. Müasir geyim istehsalı elmi-texniki tərəqqinin sürətlənmiş tempinin təsiri altında məhsulların çeşidinin genişləndirilməsi və yenilənməsi prosesinin sürətli inkişafı, istehlakçı tələbatının genişlənməsi, modanın dəyişməsi və digər amillərlə səciyyələnir. Elmi-texniki tərəqqi avadanlığın yenilənməsi, yeni materialların və texnoloji üsulların tətbiqi hesabına bütün istehsalın dinamikliyini artırır [9]. Hazırda dünyada moda sənayesi ən böyük istehlak sənayesindən biri hesab olunur və moda sənayesi təkcə paltar tikməkdən ibarət deyil, həm də alıcılar arasında dəb məhsullarının istehsalı və satışı ilə məşğul olan xidmət sektorudur. Moda məhsullarına vətəndaşların şəxsi ehtiyaclarını ödəyən yüngül sənaye məhsullarının bəzi qrupları daxildir: geyim; şəxsi aksesuarlar (corablar, əlcəklər, çantalar, kəmərlər, papaqlar və s.); parfümeriya və kosmetika (ətir, pomada, saç lakı və s.); ev aksesuarları (yataq dəsti, qab-qacaq, xalça və s.). Moda sənayesinə daxil olan əsas sahələr toxuculuq, parfümeriya və digərləridir. Bu sənaye kənd təsərrüfatı və ya sintetik xammaldan materialların istehsalı üçün nəhəng bir sənayedir. Moda sənayesinin inkişafı, geyim bazarının böyüməsi iqtisadiyyatın bir



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

sıra digər sahələri, o cümlədən tekstil istehsalı, kənd təsərrüfatı, kimya sənayesi, maşınqayırma və s. ilə bağlıdır. Ümumilikdə, yüngül sənayeyə əhalini parçalar, geyim və ayaqqabılarla təmin edən bir qrup sənaye və yarımsənaye sahələri daxildir. Əsas istehsal sahəsi toxuculuq, ayaqqabı, dəri, xəz, geyim və s. kimi sahələri əhatə edir. yüngül sənaye sahəsinin alt sahələrinə isə şəkil 2-də göstərilənlər daxildir [10].

**Şəkil 1.**

**Yüngül sənayenin alt sahələrinin blok-sxemi.**




Şəkil müəllif tərəfindən tərtib edilib.



Yüngül sənayenin inkişafını təhlil edərkən kəmiyyət və keyfiyyət məlumatlarından istifadə edilir və təhlil metodologiyası üçün kəmiyyət məlumatlarına bunları aid etmişik: yüngül sənaye və onun müəssisələrinin vəziyyəti haqqında statistik məlumatlar; yüngül sənaye müəssisələrinin vəziyyəti və davranışı haqqında sorğu məlumatları və yüngül sənaye məhsullarının istehlakçılarının davranışına dair sorğu məlumatları. Digər tərəfdən, yüngül sənaye müəssisələrinin vəziyyəti və davranışı ilə bağlı məlumatların təhlili onların fəaliyyətinin əsas aspektlərinə söykənir: istehsal həcmlərinin dinamikasına; məşğulluq, əmək haqqı və əmək məhsuldarlığına; investisiyalar və innovasiyalara; xarici iqtisadi fəaliyyətdə iştiraka; müəssisələrin üzləşdiyi ən ciddi problemlərə və müəssisələrə dövlət dəstəyi tədbirlərinə münasibətə və s. Burada əsas məqsəd yüngül sənayesinin əsas sahələrinin vəziyyətinin təhlili, qiymətləndirilməsi və onun inkişafında əlverişsiz vəziyyətlərin aradan qaldırılması üçün həll yollarının axtarışıdır.

**Yüngül sənaye sahəsinin iqtisadi inkişafını ləngidən problemlər və onların həlli istiqamətləri**

Yüngül sənayenin inkişafına mane olan əsas problemləri daha ətraflı üzə çıxarmaq və bu problemlərin mümkün həlli yollarına dair konkret tövsiyələr formalaşdırmaqdan ibarətdir. Bundan başqa bu sahənin fəaliyyətinin sabitləşdirilməsi istiqamətində dövlət dəstəyi tədbirlərinin müəyyənləşdirilməsi zərurəti də yaranır. Hazırda yüngül sənaye müəssisələrinin fəaliyyətinin sabitləşməsinin təmin edilməsi çərçivəsində dövlət dəstəyinin əsas istiqamətləri bunlardan ibarətdir: kiçik və orta sahibkarlığa yeni başlayanlara sahibkarlıq fəaliyyətinin

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

açılması ilə bağlı xərclərin qismən ödənilməsi üçün qrantların həcminin artırılması; vergi yükünün azaldılması və dövlət sifarişlərinin həcminin artması. Yuxarıda qeyd olunanlara əsaslanaraq, yüngül sənayenin inkişafının qiymətləndirilməsinə metodoloji yanaşmanı şəkil 2-ki kimi əks etdirmişik.

**Şəkil 2.**

**Yüngül sənayenin inkişafının qiymətləndirilməsinə metodik yanaşmanın sxemi**




Şəkil müəllif tərəfindən tərtib edilib.

Şəkil 2-dən yanaşsaq, yüngül sənaye müəssisələrinin inkişafı üçün təklif olunan metodoloji yanaşma həmin sahə müəssisələrinin vəziyyətinin dövri təhlili yolu ilə mövcud resurs potensialına daha çox uyğun gələn inkişaf yolunu seçməyə imkan verir. Bu metodoloji yanaşma əsasında yüngül sənayenin inkişaf strategiyasını formalaşdırmaq mümkündür. SWOT və PEST analizlərindən istifadə etməklə dərin və hərtərəfli təhlil yolu ilə inkişaf strategiyasının formalaşmasının birinci mərhələsində istehsalın artımını məhdudlaşdıran əsas amil müəyyən edilir və əsas məqsədə çevrilir. Bundan əlavə, ikinci dərəcəli məqsədlər formalaşır. İnkişaf strategiyasının formalaşdırılması prosesinin üçüncü mərhələsi qarşıya qoyulan məqsədlərə nail olmağa imkan verən zəruri tədbirlərin görülməsi ilə tamamlanır. Ümumilikdə, yüngül sənayenin inkişaf potensialının müəyyən edilməsi məqsədilə qarşılıqlı fəaliyyətin üç subyekti: dövlət və yerli hakimiyyət orqanları, yüngül sənaye müəssisələri və ali təhsil müəssisələri əsasında metodik yanaşma da təklif olunur. Bu yanaşmanın həyata



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

keçirilməsi regional qarşılıqlı fəaliyyət subyektlərinin güclü və zəif tərəflərini müəyyən etməyə, həm ayrı-ayrı subyektlərdə, həm də onların məcmusunda yüngül sənayenin inkişafı potensialını müəyyən etməyə imkan verəcəkdir. Bu metodoloji yanaşma əsasında yüngül sənayenin inkişaf vektorlarını müəyyən etmək mümkündür. Bütövlükdə yüngül sənayenin inkişafını təmin etmək üçün onun qiymətləndirilməsinə metodik yanaşmanın həyata keçirilməsi hər bir subyektin potensialını, onların güclü və zəif tərəflərini, fəaliyyət istiqamətlərini müəyyənləşdirmək baxımından əhəmiyyətlidir. Beləliklə, yüngül sənayenin bir sıra sahələrlə qarşılıqlı əlaqəsini nəzərə alaraq onun inkişafına yönəldilmiş tədbirləri müəyyənləşdirə və şəkil 3-ki kimi əks etdirə bilərik.

**Şəkil 3.**

**Yüngül sənayenin inkişafına yönəlmiş tədbirlərin blok-sxemi**




Şəkil müəllif tərəfindən tərtib edilib.

Şəkil 3-də əks olunmuş tədbirləri görməklə, yüngül sənayedə çoxlu sayda iş yeri yaratmaq və bu sahədən əldə edilən gəlirlərin ÜDM-də xüsusi çəkisini artırmaq mümkündür. Odur ki, dövlət yüngül sənayenin müasir şəraitdə səmərəli fəaliyyət göstərməsi problemlərini və perspektivlərini diqqətdə saxlamalı, yerli istehsalçıları stimullaşdırmalı, yüngül sənaye mallarının istehsalı və satışı ilə məşğul olan kiçik və orta sahibkarlığa dövlət dəstəyinin imkanlarını nəzərdən keçirməlidir. Çünki, yüngül sənayenin inkişafı və onun rəqabət qabiliyyətinin artırılması yolu bilavasitə dövlətin siyasətindən asılıdır.

**Nəticə**

Yüngül sənayenin iqtisadi inkişaf problemlərinin nəzəri-metodoloji yanaşmalarından baxsaq, yaxın perspektivdə bir sıra məsələlərin daha çox ön plana çıxacağını və onun həlli yollarının müəyyənləşdirilməsinin vacibliyi diqqət çəkəcəkdir:

- Birincisi, qlobal transformasiyalar kontekstində yüngül sənaye sahəsinin iqtisadi inkişaf problemlərinə müasir yanaşmalar və maksimum konseptual baxışlar təmin edilməlidir;
- İkincisi, yüngül sənayenin müxtəlif fəaliyyət istiqamətlərinin qarşılıqlı fəaliyyətinin inteqrativ xüsusiyyətlərinin ciddi şəkildə təhlil olunması və nəzərə alınması vacibdir;
- Üçüncüsü, yüngül sənaye sahələrində istehsal olunan məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi, alıcılıq məmnunluğunun ən yüksək səviyyədə təmin olunması və bu sahənin inkişafında iqtisadi inkişaf amillərinin kompleks nəzərə alınması sayəsində yaxın, orta və uzaq perspektivdə yüngül sənaye sahəsinin yeni inkişaf səmtlərinin və fəaliyyət mexanizmlərinin ortaya çıxacağı ehtimalı yüksəkdir.



© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

**Ədəbiyyat**


1. Особенности развития легкой промышленности https://doc4web.ru/ekonomika/osobennosti-razvitiya-legkoy-promishlennosti.html# .
2. Japarova, R.E., Junusova, A.A., Kurmankulova, N.J., Konovalova, A.Y. Xarici ölkələrdə yüngül sənayenin inkişaf xüsusiyyətləri.// "Turan" Universitetinin bülleteni. 2021, s.54-63.
3. Печаткина, Е.Ю. Особенности предприятий лёгкой промышленности.// Вестник Челябинского государственного университета. 2012. № 8 (262). Экономика. Вып. 36. с. 117–123.
4. Zeynalov, S. Azərbaycan yüngül sənayesində investisiya proseslərinin dövlət tənzimlənməsinin əsas istiqamətləri. // Elm və innovativ texnologiyalar, 2019, № 8, s. 95-106.
5. Ильинская, С.Д. Характеристика легкой промышленности // Инновационный потенциал развития общества: взгляд молодых ученых, Курск, 01 декабря 2020 года / сборник научных статей Всероссийской научной конференции перспективных разработок, в 2-х томах. Курск: Юго-Западный государственный университет, 2020, с. 508-510.
6. Кузьмина, Н.Н. Легкая промышленность: состояние и перспективы развития // Вестник алтайской науки. – 2014. – № 2-3(20-21). – с. 218-222.
7. Кадацкая, Д.В., Лаврова, Ю.С. Методические подходы к оценке стратегического развития предпринимательства в отрасли легкой промышленности как основного драйвера развития региона // Креативная экономика, 2019, т. 13, № 7, с.1483-1494.
8. Сатторкулов, О.Т., Махмудова, Г.Р., Турдикулова, Г.О. Развитие текстильной промышленности в условиях модернизации экономики // Вопросы экономики и управления. – 2018. – № 1 (12). – с. 11-14.
9. Аббасова, Ш.Р., Юсифов Э.Д. Понятие "гибкости" изделий легкой промышленности в Азербайджане // Стратегические вызовы и тенденции социально-экономического развития регионов: Сборник научных трудов по итогам проведения круглого стола, Москва, 26 сентября 2019 года. –с. 5-11.
10. Abbasov, İ.M., Əliyev, T.N. Qeyri-neft sənayesinin iqtisadiyyatı. Bakı, 2018, 267 s.




***Шахрияр Муслат оглу Каримов***

***Теоретико-методологические подходы к проблемам развития сферы легкой промышленности и их особенности***

***Резюме***

*Целью исследования является изучение теоретико-методологических подходов к проблемам развития сферы легкой промышленности и их особенности. С этой целью исследована сущность формирования и развития сферы лёгкой промышленности. Анализированы важнейшие направления деятельности сферы лёгкой промышленности и их значимость в экономике страны. Рассмотрены возможности и перспективы интенсификации развития сферы лёгкой промышленности в современных условиях. Методология исследования – состоит из применения ряда экономических методов, в том числе анализа, синтеза, сравнения, статистики и обобщения. Кроме того, рассмотрены другие методологические подходы, истекающие из трудов разных учёных и исследователей. Практическая значимость исследования – заключается в эффективности использовании результатов исследования в подготовке целевых программ, стратегий и комплексных мероприятий по организации и развитию мощной сферы лёгкой промышленности, отвечающая требованиям современности. Результаты исследования – отражается в разработке ряда механизмов и подготовке обоснованных предложений по совершенствованию действующих механизмов в разных направлениях деятельности сферы лёгкой промышленности в целом. Оригинальность и научная новизна исследования – оригинальность исследования отражена в материалах*

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

*статьи, которая основана на целевых исследовательских работах и авторских подходах. Основная научная новизна исследования является формирование современного и более объективного подхода организации и развития сферы лёгкой промышленности в условиях глобальной трансформации. Обосновано существенное совершенствование и обновление действующих механизмов и инструментарий в деятельности разных участков сферы лёгкой промышленности в соответствии современных требований.*

***Ключевые слова:*** *легкая промышленность, сферы легкой промышленности, проблемы развития легкой промышленности, пути развития легкой промышленности, факторы замедляющие развитие легкой промышленности, тканевые изделия, изделия одежды.*

***Shahriyar Muslat Karimov***

***Theoretical and methodological approaches to the problems of economic development of light industry and their features***

***Summary***

*Purpose of the Study- is to identify theoretical and methodological approaches to the problems of economic development of light industry and their features. Therefore, the article provides information about the development problems of the light industry and their characteristics. The article also discusses the modeling of the development of light industry and the identification of resources in this field. Simultaneously, ways to solve the problems of economic development of light industry were identified. Research Methodology- the methods of analysis, synthesis, statistics and generalization were used in order to eliminate the problems that hinder the development of the light industry. Practical Application of the Research- the scientific results obtained from this research can be used in the development of targeted programs and action strategies for the development of light industry, as well as the development of teaching resources. Research results- ultimately include the development of optimal action strategies and appropriate mechanisms to develop the light industry and ensure the effectiveness of its potential. Originality and scientific novelty of the research- the materials in the article are the result of targeted research using economic methods, and therefore its originality is at the required level. The main scientific novelty is to approach the development of light industry in modern times and the existing problems from a modern perspective, to assess the level of priority of the field. Simultaneously, the importance of modeling the development of light industry in Azerbaijan and taking effective measures in this regard was substantiated on the basis of objective realities, also relevant recommendations and suggestions were made in this respect.*

***Keywords:*** *light industry, light industry field, problems of development of light industry, ways of development of light industry, problems of development of light industry, factors hindering the development of light industry, textile products, clothing products.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 22.02. 2022.***
***Çapa qəbul olunub: 01.03.2022.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*